**Aliyev S.S.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.68.17-23**
**UDC 343.988**

## How does international law protect victims of crime?

**Abstract:** One of the undoubted conquests of democratic transformations in our state at the end of the twentieth century was the recognition of certain achievements of world legal thought. Our country has rapidly entered the legal field of modern civilization of the European type. The Constitution of 1995 established that the generally recognized principles and norms of international law and international treaties of our country are an integral part of its legal system. By generally recognized principles and norms of international law, we meant primarily the UN covenants on human rights and their protection. The article considers the category of protection of the rights of victims of crimes; Analysis of relevant international regulations governing the protection of victims of crime; it is concluded that the protection of citizens from criminal encroachments, ensuring compensation for harm caused to victims of crimes, are urgent tasks of the modern state and society.

**Keywords:** victim of crime; law; protection; international law; principles; recommendations; standards.

## References

1. Bykova E.V. *Mezhdunarodnye standarty v obespechenii prav i zakonnyh interesov zhertv prestupleniy* [International standards in ensuring the rights and legal interests of the victims of crimes]. Prokurorskaya i sledstvennaya praktika. 2005. No. 3-4.

2. Varkhapovskaya E.M. *Voprosy zaschity zhertv prestupleniy na mwzhdunarodnom urovne* [Issues of protection of crimes' victims at international level]. Aktual'nye problemy pravotvorchestva v pravoprimenitel'noy deyatel'nosti. Irkutsk, 2008, 5 April.

3. Dmitrieva L.Z. *Mezhdunarodnye standarty zaschity detey-zhertv prestupleniy i problemy ih realizatsii v rossiyskom ugolovnom sudoproizvodstve* [International standards of protection the children-victims of crimes and problems their implementation in the Russian criminal proceedings]. Vestnik YYuI MVD Rossii. 2009. No. 1.

4. Eletskaya E.N. *Kompleksnaya pomosch' detyam i podrostkam-zhertvam seksual'nogo nasiliya* [Comprehensive care for children and adolescent victims of sexual violence]. Yuvenal'naya yustitsiya: mul'tidistsiplinarny podhod. Opyt stanovleniya pravosudiya v otnoshenii nesovershennoletnih. Rostov on Don, 2002.

5. Ignatova N.M. *Mezhdunarodnoe zakonodatel'stvo i Konstitutsiya RF o zaschite prav i svobod cheloveka v aspekte problem zhertv prestupleniy* [International law and Constitution of the RF on protection of rights and freedoms oh man in aspect of crimes' victims]. Nauchnye trudy RAYuN, 2002. No. 2.

6. Kalinsky I.V. *Pravovye sredstva zaschity zhertv prestupleniy v ugolovnom protsesse (analiz zakonodatel'nyh novell i pravoprimenitel'noy praktiki v aspekte mezhdunarodnyh evropeyskih standartov*) [Legal remedies for the protection of crime victims in criminal proceedings (analysis of leg-

♦ **Aliyev Samir Sabir oglu** – PhD in Law, Doctoral student of the Department of Criminal Law and Criminology of Baku State University (Azerbaijan). E-mail: samir.s.aliyev@inbox.ru

islative innovations and law enforcement practice in the aspect of international European standards)]. Materialy Vserossiyskoy mezhvedomstv. nauchno-praktich. konferentsii. Moscow, 2004, 19-20 February.

7. Musayev M.A. *Mezhdunarodnye pakty o pravah cheloveka i zaschite zhertv prestupleniy* [International Covenants on Human Rights and the Protection of Victims of Crime]. Publichnoe i chastnoe pravo. 2011. No. 1(9).

8. Musayev M.A. *Printsipy mezhdunarodnyh paktov o zaschite zhertv prestupleniy i ih otrazhenie v otechestvennom zakonodatel'stve i praktike pravoprimeneniya* [Principles of International Covenants for the protection of victims of crime and their reflection in domestic legislation and law enforcement practice]. Sovremennoe pravo. 2012. No. 2.

9. Sharov D.V. *Mezdunarodno-pravovye akty Organizatsii Ob'edinennyh Natsiy, opredelyauschie pravovoe polozhenie poterpevshego v ugolovnom sudoproizvodstve do prinyatiya "Deklaratsii osnovnyh printsipov pravosudiya dlya zhertv presupleniya I zloupotrebleniya vlast'yu* [International legal acts of the United Nations organization defining the legal status of the victim in criminal proceedings before the adoption of the "Declaration of Basic Principles of Justice for Victims of Crime and Abuse of Power"]. Yuridicheskie nauki. 2003. No. 37.

**Əliyev S.S.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.68.17-23**
**UOT 343.988**

## Beynəlxalq hüquq cinayət qurbanlarını necə müdafiə edir?

**Xülasə:** XX əsrin sonlarında dövlətimizdə demokratik transformasiyaların şübhə doğurmayan nəticələrdən biri də dünya hüquq düşüncəsinin müəyyən nailiyyətlərinin tanınması olmuşdur. Ölkəmiz Avropa tipli müasir sivilizasiyanın hüquqi sahəsinə sürətlə daxil olmuşdur. 1995-ci il Konstitusiyası təsbit etdi ki, beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları, ölkəmizin beynəlxalq müqavilələri onun hüquq sisteminin tərkib hissəsidir. Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları dedikdə biz ilk növbədə insan hüquqları və onların müdafiəsi ilə bağlı BMT-nin paktlarını nəzərdə tuturuq. Məqalədə cinayət qurbanlarının hüquqlarının müdafiəsi kateqoriyası; Cinayət qurbanlarının müdafiəsini tənzimləyən müvafiq beynəlxalq qaydaların təhlili; vətəndaşların cinayətkar qəsdlərdən qorunması, cinayət qurbanlarına dəymiş zərərin ödənilməsini təmin etmək müasir dövlətin və cəmiyyətin təxirəsalınmaz vəzifələrindəndir.

**Açar sözlər:** cinayət qurbanı; hüquq; müdafiə; beynəlxalq hüquq; prinsiplər; tövsiyələr; standartlar.

Qloballaşma şəraitində cinayət qurbanlarınınhüquqlarının müdafiəsi beynəlxalq hüququn aktual məsələlərindən biridir. Odur ki, kifayət qədər sayda beyəlxalq-hüquqi sənəddə cinayət qurbanlarının müdafiəsi haqqında əsas prinsip xarakterli müddəalar yer almışdır. Belə sənədlər

♦ **Əliyev Samir Sabir oğlu -** hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin "Cinayət hüququ və kriminologiya" kafedrasının doktorantı (Azərbaycan). E-mail: samir.s.aliyev@inbox.ru

sırasında cinayət qurbanlarının müdafiəsinə dair prinsip-normalar müəyyən edən sənədlərə, bir qayda olaraq aşağıdakılar aid edilir [8, s. 115]:

1) BMT-nin Baş Assambleyası tərəfindən 1948-ci il dekabrın 10-da qəbul edilmiş Ümumdünya insan hüquqları Bəyannaməsi;

2) İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında 4 noyabr 1950-ci ildə Romada qəbul edilmiş Avropa Konvensiyası;

3) İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında 1966-cı il 16 dekabr tarixli, 2200 A (XXI) nömrəli qətnamə ilə qəbul edilmiş Beynəlxalq pakt.

Yuxarıdakı sənədlərdə cinayət qurbanlarının müdafiəsi haqqında ən ümumi müddəalar bəyan edilmiş, onların sonrakı inkişafı isə digər beynəlxalq-hüquqi sənədlərin qəbulu ilə davam etdirilmişdir. Məsələn, Ümumdünya insan hüquqları Bəyannaməsinin cinayət qurbanlarının müdafiəsinə aid edilə biləcək müddəalarına aşağıdakıları aid etmək olar. Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir (Bəyannamənin 3-cü maddəsi); hər bir insan, Konstitusiya və ya qanunla ona verilən əsas hüquqlarının pozulması hallarında səlahiyyətli məhkəmələr tərəfindən bu hüquqlarının səmərəli şəkildə bərpa edilməsi hüququna malikdir (Bəyannamənin 8-ci maddəsi); hər bir insan, bu Bəyannamədə ifadə edilən hüquq və azadlıqların tam şəkildə həyata keçirilməsinə şərait yaradan sosial və beynəlxalq idarə üsulu hüququna malikdir (Bəyannamənin 28-ci maddəsi) [7, s. 47-48].

Hesab edirik ki, cinayət qurbanlarını müdafiə edən beynəlxalq sənədlər sırasında ilk növbədə Birləşmiş Millətlər Təşkilatının müvafiq hüquqi aktlarının adı çəkilməlidir, çünki fəaliyyəti müddətində BMT həm sırf cinayət qurbanlarına həsr edilmiş bəzi bəyannamə və prinsiplər qəbul etmiş, həm də digər məsələlərə dair qəbul etdiyi bir sıra sənədlərində cinayət qurbanlarının hüquqlarının müdafiəsi məsələlərinə toxunmuşdur [9, s. 47]. Belə sənədlərdən ən əsası Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında BMT-nin Baş Assambleyası tərəfindən 40/34 saylı qərarla təsdiq edilmiş və 1985-ci il noyabrın 29-da qəbul edilmiş Bəyannamədir. Həmin Bəyannamənin Cinayət qurbanlarına həsr edilmiş hissəsində bir sıra konseptual əhəmiyyətli məsələlərə beynəlxalq-hüquqi prizmadan münasibət bildirilmişdir. Belə ki, Bəyannamənin əsas əhəmiyyətli cəhətlərindən biri ondan ibarətdir ki, burada qurban anlayışına kifayət qədər universal və müfəssəl tərif verilmişdir. Bəyannamənin 1-ci bəndinə görə, qurban dedikdə, üzv-dövlətlərin hakimiyyətdən cinayətkarcasına sui-istifadəni qadağan edən qanunları da daxil olmaqla, qüvvədə olan cinayət qanunlarını pozan hərəkət və ya hərəkətsizlik nəticəsində fərdi və ya kollektiv şəkildə ziyan vurulmuş, o cümlədən bədən xəsarəti, mənəvi zərər, emosional iztirablar yetirilmiş, maddi ziyan vurulmuş, yaxud əsas hüquqları əhəmiyyətli dərəcədə pozulmuş şəxslər başa düşülür [1, s. 157]. Bəyannamədə ədalət mühakiməsinin əlçatanlığı və ədalətli davranış başlığı altında sistemləşdirilmiş müddəalar cinayətdən zərərçəkmiş şəxslərin hüquq və qanuni maraqlarının mühafizə və müdafiəsi baxımından daha əhəmiyyətlidir, çünki məhz həmin müddəalarda cinayət qurbanlarının minimal hüquqları təsbit edilmişdir [5, s. 729]. Nəzərdən keçirilən Bəyannamənin daha bir xüsusiyyəti cinayət qurbanlarının əmlak hüquqlarının müdafiəsi ilə əlaqədar olaraq restitusiya institutuna geniş yer verməsidir. Belə ki, Bəyannamənin 8-11-ci bəndlərinin müddəalarına əsasən, müvafiq hallarda hüquq pozucuları, yaxud onların davranışı üçün məsuliyyət daşıyan üçüncü şəxslər cinayət qurbanlarına, onların ailələrinə, yaxud himayələrində olan şəxslərə ədalətli restitusiya təqdim etməlidirlər.

Cinayət qurbanlarının hüquqlarına həsr edilmiş BMT sənədləri sırasında 21 iyul 2004-cü il tarixli, 2004/27 saylı qərarla təsdiq edilmiş Cinayətlərin qurbanı və şahidi olmuş uşaqlar üçün ədalət

mühakiməsinə dair Rəhbər Prinsiplər xüsusi qeyd edilməlidir. Qeyd edilən Rəhbər Prinsiplər müasir biliklərlə beynəlxalq və regional normaların, standart və prinsiplərin uyğunlaşdırılmasına əsaslanan təcrübənin optimal növləri əks olunmuşdur. Rəhbər Prinsiplər müvafiq milli qanunvericiliyə və məhkəmə prosedurlarına uyğun olaraq, eləcə də regional sosial, iqtisadi, mədəni və coğrafi şərtlər nəzərə alınmaqla tətbiq edilməlidir. Bununla belə, dövlətlər daima bu prinsiplərin tətbiq edilməsinə mane olan praktiki çətinliklərin aradan qaldırılması istiqamətində səy göstərməlidirlər.

Nəzər salınan Rəhbər Prinsiplər aşağıdakı məqsədlərə nail olmaq üçün praktiki əsasın mövcudluğunu təmin edir:

1) milli və daxili qanunvericiliyin, prosedurların və təcrübənin onların cinayət qurbanı, yaxud şahidi olmuş uşaqların hüquqlarının və ümumiyyətlə, Uşaq hüquqları haqqında Konvensiyanın təmin edilməsinə uyğun gəlib-gəlmədiyini müəyyən etmək üçün gözdən keçirilməsinə yardım etmək;

2) hökümətlərə, beynəlxalq təşkilatlara, ictimai təşkilatlara, qeyri-hökümət və icma təşkilatlarına, eləcə də digər maraqlı tərəflərə cinayət qurbanı və şahidi olmuş uşaqlarla bağlı əsas məsələlərə dair qanunvericiliyin, siyasətin, proqramların və təcrübənin işlənib hazırlanması, həyata keçirilməsi və tətbiq edilməsi işində yardım etmək;

3) milli, regional və beynəlxalq miqyasda özlərinin gündəlik praktiki fəaliyyətlərində yetkin insanlar və yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində çalışarkən cinayət qurbanı və şahidi olmuş uşaqlarla Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında Bəyannaməyə uyğun olaraq işləyən mütəxəssislər, zəruri hallarda isə könüllülər üçün təlimatçı qismində çıxış etmək;

4) uşaqlarla işləyən şəxslərə cinayət qurbanı və şahidi olmuş uşaqların problemlərinə daha diqqətli münasibət göstərmələri üçün yardım və dəstək göstərmək.

Viktimizasiyanın xarakteri müxtəlif kateqoriyalı uşaqlara fərqli təsir etdiyi hallarda, məsələn, uşaqlar üzərində, xüsusilə də qız uşaqları üzərində cinsi zorakılıq törədildiyi hallarda hər bir hüquq sistemi daxilində Rəhbər Prinsiplərin həyata keçirilməsi zamanı həmin uşaqlarla işləyən kadrların seçiminin və hazırlığının lazımi metodları və uşaqların müdafiə prosedurları nəzərdə tutulmalı, həmin uşaqların xüsusi tələbatları nəzərə alınmalıdır [3, s. 57; 4, s. 69].

Məsələyə BMT sənədləri kontekstindən baxdıqdan sonra, həmçinin qeyd edilməlidir ki, ötən zaman ərzində  Avropa Şurasının Nazirlər Kabineti tərəfindəncinayət qurbanlarının hüquqlarının müdafiə edilməsi sahəsində kifayət qədər sayda qərarlar və tövsiyələr qəbul edilmiş və bu tövsiyələr ayrı-ayrı cinayətlərdən zərər çəkmiş şəxslərin hüquq və qanuni maraqlarının hüquqi təminatlarını müəyyən edən beynəlxalq sənədlərin qəbulunda və milli qanunvericiliklərin beynəlxalq hüquqla uyğunlaşdırılmasında öz rolunu oynamışdır [2, s. 233]. Onlara aşağıdakıları aid etmək olar:

1) Cinayət qurbanlarına kompensasiya verilməsi haqqında 28 sentyabr 1977-ci il tarixli, (77) 27 saylı qərar;

2) Cinayət hüququ və cinayət prosesi çərçivəsində zərərçəkmiş şəxsin vəziyyəti haqqında 28 iyun 1985-ci il tarixli, R (85) 11 saylı tövsiyə;

3) Cinayət qurbanlarına yardım və viktimizasiyanın qarşısının alınması haqqında17 sentyabr 1987-ci il tarixli, R (87) 21 saylı tövsiyə;

4) Dəyişən Avropada cinayətkarlıqla mübarizə siyasəti haqqında 05 sentyabr 1996-cı il tarixli, R (96) 8 saylı tövsiyə;

5) Cinsi istismar məqsədləri ilə insan alverinə qarşı mübarizə haqqında 19 may 2000-ci il tarixli, R (2000) 11 saylı tövsiyə;

6) Qadınları zorakılıqdan qorumaq haqqında 30 aprel 2002-ci il tarixli, R (2002) 5 saylı tövsiyə;

7) Cinayət qurbanlarına yardım haqqında 14 iyun 2006-cı il tarixli, R (2006) 8 saylı tövsiyə.

AŞNK qeyd edilən qərar və tövsiyələri cinayət qurbanlarının hüquqlarını təsbit edən bir sıra konvensiyanın qəbul edilməsi üçün baza və təkanverici qüvvə kimi çıxış etmişdir. Məsələn, Zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsi haqqında 1983-cü il noyabrın 24-də Strasburq şəhərində imzalanmış Avropa Konvensiya onlardan biridir. Bu Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının 836-IQ №-li Qanunu 17 mart 2000-ci il tarixdə qəbul edilmişdir.Ümumilikdə Preambuladan, üç əsas aktdan (hissədən) və 20 maddədən ibarət olan bu beynəlxalq sənəd Avropa məkanında zorakı cinayətlərdən zərər çəkmiş şəxslərin kompensasiya almaq hüququnun təmin edilməsi üçün əsas hüquqi baza kimi çıxış edir.

Konvensiyanın birinci aktı zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsinin əsas prinsiplərini müəyyən edir. Həmin prinsiplərə aiddir [6, s. 239-240]:

1) dövlətin kompensasiya öhdəliyi prinsipi;

2) kompensasiyanın minimal həddi və məbləği prinsipi;

3) kompensasiya ödəməsinin müddəti prinsipi;

4) təkrar (ikiqat) kompensasiyanın yolverilməzliyi prinsipi;

5) kompensasiyanın dövlət tərəfindən alınması;

6) hüquq barədə məlumatlandırmaq öhdəliyi.

## Biblioqrafiya

1. Быкова Е.В. Международные стандарты в обеспечении прав и законных интересов жертв преступлений // Прокурорская и следственная практика. - 2005. - № 3-4.

2. Варпаховская Е.М. Вопросы защиты жертв преступлений на международном уровне / Актуальные проблемы правотворчества и правоприменительной деятельности. Тезисы докладов международной научно-практической конференции, посвященной 90-летию Иркутского государственного университета и Юридического института ИГУ. Иркутск, 5 апреля 2008 г.

3. Дмитриева Л.З. Международные стандарты защиты детей-жертв преступлений и проблемы их реализации в российском уголовном судопроизводстве // Вестник УЮИ МВД России. – 2009. - № 1.

4. Елецкая Е.Н. Комплексная помощь детям и подросткам-жертвам сексуального насилия // Ювенальная юстиция: мультидисциплинарный подход. Опыт становления правосудия в отношении несовершеннолетних. Материалы симпозиума. Ростов-на-Дону, 2002.

5. Игнатова Н.М. Международное законодательство и Конституция РФ о защите прав и свобод человека в аспекте проблемы жертв преступлений // Научные труды РАЮН. – 2002. - № 2.

6. Калинский И.В. Правовые средства защиты жертв преступлений в уголовном процессе (анализ законодательных новелл и правоприменительной практики в аспекте международных европейских стандартов) / Конституционная защита граждан от преступных посягательств, реализуемая нормами уголовного и уголовно-процессуального законодательства. Материалы Всероссийской межведомственной научно-практической конференции. Москва, 19-20 февраля 2004 г.

7. Мусаев М.А. Международные пакты о правах человека и защите жертв преступлений // Публичное и частное право. - 2011. - № 1 (9).

8. Мусаев М.А. Принципы международных пактов о защите жертв преступлений и их отражение в отечественном законодательстве и практике правоприменения // Современное право. - 2012. - № 2.

9. Шаров Д.В. Международно-правовые акты Организации Объединенных Наций, определяющие правовое положение потерпевшего в уголовном судопроизводстве до принятия «Декларации основных принципов правосудия для жертв преступления и злоупотребления властью» // Юридические науки. - 2003. - № 37.

**Алиев С.С.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.68.17-23**
**УДК 343.988**

## Как международное право защищает жертв преступлений?

**Аннотация:** Одним из несомненных завоеваний демократических преобразований в нашем государстве конца XX века явилось признание отдельных достижений мировой правовой мысли. Наша страна стремительно вошла в правовое поле современной цивилизации европейского типа. Конституцией от 1995 года было установлено, что общепризнанные принципы и нормы международного права и международные договоры нашей страны являются составной частью ее правовой системы. Под общепризнанными принципами и нормами международного права имелись в виду прежде всего пакты ООН о правах человека и их защите. В статье рассматривается категория защиты прав жертв преступлений; анализируются соответствующие международные нормативные акты, определяющие принципы охраны жертв преступлений; делается вывод, что охрана граждан от преступных посягательств, обеспечение компенсации вреда, причиняемого жертвам преступлений, являются актуальными задачами современного государства и общества.

**Ключевые слова:** жертва преступления; право; защита; международное право; принципы; рекомендации; стандарты.

## Библиография

1. Быкова Е.В. Международные стандарты в обеспечении прав и законных интересов жертв преступлений // Прокурорская и следственная практика. – 2005. - № 3-4.

2. Варпаховская Е.М. Вопросы защиты жертв преступлений на международном уровне / Актуальные проблемы правотворчества и правоприменительной деятельности. Тезисы докладов международной научно-практической конференции, посвященной 90-летию Иркутского государственного университета и Юридического института ИГУ. Иркутск, 5 апреля 2008 г.

[♦] **Алиев Самир Сабир оглы –** доктор философии права, докторант кафедры «Уголовное право и криминология» Бакинского государственного университета (Азербайджан). E-mail: samir.s.aliyev@inbox.ru

3. Дмитриева Л.З. Международные стандарты защиты детей-жертв преступлений и проблемы их реализации в российском уголовном судопроизводстве // Вестник УЮИ МВД России. – 2009. - № 1.

4. Елецкая Е.Н. Комплексная помощь детям и подросткам-жертвам сексуального насилия // Ювенальная юстиция: мультидисциплинарный подход. Опыт становления правосудия в отношении несовершеннолетних. Материалы симпозиума. Ростов-на-Дону, 2002.

5. Игнатова Н.М. Международное законодательство и Конституция РФ о защите прав и свобод человека в аспекте проблемы жертв преступлений // Научные труды РАЮН. – 2002. - № 2.

6. Калинский И.В. Правовые средства защиты жертв преступлений в уголовном процессе (анализ законодательных новелл и правоприменительной практики в аспекте международных европейских стандартов) / Конституционная защита граждан от преступных посягательств, реализуемая нормами уголовного и уголовно-процессуального законодательства. Материалы Всероссийской межведомственной научно-практической конференции. Москва, 19-20 февраля 2004 г.

7. Мусаев М.А. Международные пакты о правах человека и защите жертв преступлений // Публичное и частное право. – 2011. - № 1 (9).

8. Мусаев М.А. Принципы международных пактов о защите жертв преступлений и их отражение в отечественном законодательстве и практике правоприменения // Современное право. – 2012. - № 2.

9. Шаров Д.В. Международно-правовые акты Организации Объединенных Наций, определяющие правовое положение потерпевшего в уголовном судопроизводстве до принятия «Декларации основных принципов правосудия для жертв преступления и злоупотребления властью» // Юридические науки. - 2003. - № 37.